Azərbaycan Respublikası Təhsil Nazirliyi ilə Alman Akademik Mübadilə Xidməti (DAAD) arasında imzalanmış Sazişə uyğun olaraq Azərbaycan Respublikası Prezidentinin 16 aprel 2007-ci il tarixli 2090 nömrəli Sərəncamı ilə təsdiq edilmiş «2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı» çərçivəsində Almaniya Federativ Respublikasının ali məktəblərində təhsil almaq məqsədilə aşağıdakı ixtisaslar üzrə müsabiqə elan edilir:

- informasiya texnologiyaları;

- mühəndislik;

- neft sənayesi;

- tibb;

- riyaziyyat;

- fizika;

- biologiya;

- kimya;

- ekologiya;

- kənd təsərrüfatı.

Bakalavr səviyyəsində təhsil almaq üçün Azərbaycanın müvafiq universitetlərinin ikinci və ya üçüncü kurslarında təhsil alan və bakalavr səviyyəsinə tələbə qəbulu üzrə aparılan test imtahanları çərçivəsində I qrupa daxil olan ixtisaslar üzrə ən azı 550 bal, digər ixtisas qrupları üzrə isə ən azı 600 bal toplayan Azərbaycan Respublikası vətəndaşları müsabiqədə iştirak edə bilər.

Magistratura səviyyəsində təhsil almaq üçün isə aşağıdakı şəxslər müraciət edə bilərlər:

- 2010/2011-ci tədris ilində I qrup ixtisasları üzrə orta balı 4.0-dan aşağı olmayaraq IV kursda təhsil alan və magistratura səviyyəsinə tələbə qəbulu üzrə aparılan test imtahanları çərçivəsində ən azı 112 bal (və ya bunun ekvivalenti) toplamış namizədlər;

- 2010/2011-ci tədris ilində digər ixtisas qrupları üzrə orta balı 4.0-dan aşağı olmayaraq IV kursda təhsil alan və magistratura səviyyəsinə tələbə qəbulu üzrə aparılan test imtahanları çərçivəsində ən azı 120 bal (və ya bunun ekvivalenti) toplamış namizədlər;

Diplomdansonrakı tibb proqramlarında təhsil almaq üçün təhsil müddəti ərzində orta qiyməti ən azı 4.0 olan tibb universitetinin sonuncu kurs tələbələri və ya məzunları müsabiqədə iştirak edə bilər.

Azərbaycanda Bakalavr səviyyəsi üzrə alınmış təhsil Almaniyada Magistr səviyyəsinə qəbul olunarkən tanına bilər.

Azərbaycanda Magistr səviyyəsi üzrə alınmış təhsil Almaniyada Doktorantura səviyyəsinə qəbul olunarkən tanına bilər.

Müsabiqədə iştirak etmək üçün iddiaçılar aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. Müsabiqədə iştirak etmək üçün ərizə;

2. Əsaslandırma məktubu (2 dildə);

3. 2 ədəd tövsiyə məktubu (məktubun xüsusi forması http://www.daad.de/imperia/md/content/de/foerderung/recommendation.pdf saytından əldə edilir və iddiaçının təhsil aldığı ali məktəbin professor-müəllim heyəti tərəfindən doldurulur);

4. Ali məktəbə qəbul vaxtı TQDK tərəfindən topladığı bal haqqında arayış;

5. Ali məktəb tərəfindən verilən diplomun və diploma əlavənin Alman və yaxud İngilis dilinə (ingilis dilində təhsil alacaq namizədlər) tərcümə olunmuş və notariat qaydada təsdiq edilmiş surəti;

6. Hal hazırda təhsil alan tələbələr ali məktəb tərəfindən verilən arayış və qiymət kitabçasından çıxarışın Alman və yaxud İngilis dilinə (ingilis dilində təhsil alacaq namizədlər) tərcümə olunmuş və notariat qaydada təsdiq edilmiş surəti;

7. Alman və yaxud İngilis dilini (ingilis dilində təhsil alacaq namizədlər) müvafiq ali məktəbin tələbləri səviyyəsində bilməsi haqqında zəruri sertifikatın surəti:

- alman dili üzrə ən azı DSH 2, TestDaf 4, Höte İnstitutunun B2, C1 və ya OnDaf B2 səviyyələrini müəyyən edən sertifikatlar, DSH kurslarında və Alman Dili Tədrisi Mərkəzində qeydiyyatda olanlar üçün isə OnDaf B1 sertifikatı (alman dili üzrə OnDaf testini Alman Dili Tədrisi Mərkəzində vermək olar – ünvan: Lev Tolstoy küçəsi, 171);

- ingilis dilli təhsil proqramlarına müraciət edənlər isə müvafiq alman ali məktəblərinin tələblərinə uyğun TOEFL və ya İELTS imtahanlarının sertifikatlarını və yaxud 2011-ci ilin mart-aprel aylarında imtahanlarda iştirak etmək üçün qeydiyyatdan keçmək barədə sənəd.

Tibb təhsili yalnız alman dilində aparılır.

8. Doldurularaq çap olunmuş xüsusi anket forması (https://scholarship.daad.de/obdva/wwwecht/www/index.html?lang=de və ya https://scholarship.daad.de/obdva/www_echt/www/index.html?lang=en saytlarından əldə etmək olar)

9. Tərcümeyi-hal (CV) (2 dildə);

10. 3,5x4,5 sm. ölçüdə 6 ədəd rəngli fotoşəkil;

11. Sağlamlıq haqqında arayış (AZS-086 nömrəli tibbi arayış);

12. Şəxsiyyət vəsiqəsinin və xarici pasportun surəti.

Tələb olunan sənədlər 4 nüsxədə təqdim olunmalıdır (1 ədəd əsli və 3 ədəd surət)

Təqdim olunmuş sənədləri DAAD-nin Almaniyadan gəlmiş ekspertləri yoxlayacaq və 10, 11, 12 mart tarixlərində müsahibə həyata keçirəcəklər.

Qeyd: Bakalavrdansonrakı təhsil səviyyəsi üçün müraciət edən, həqiqi hərbi xidmətə çağırışçı olan namizəd müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ aldığını

təsdiq edən sənədi və ya hərbi xidmət keçdiyi halda hərbi biletin notariat qaydada təsdiq olunmuş surətini təqdim etməlidir.

Maraqlananlar hər **gün (şənbə, bazar günləri istisna olmaqla) saat 10.00-dan 17.30-dək** Təhsil Nazirliyinin Beynəlxalq əlaqələr şöbəsinə müraciət edə bilərlər. Sənədlərin təqdim edilməsi üçün son müddət - **18 fevral 2011-cu il saat 17.30-dək .**

Əlaqə telefonları: 496-33-11; 496-34-00

Təhsil Nazirliyinin əməkdaşları:

Sevinc İsmayılova (daxili nömrə-179)

Elnarə Hüseynova (daxili nömrə-184)

Müjdat Həsənov (daxili nömrə-164).

Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Alman Akademik Mübadilə Xidməti (DAAD)